# Təntənəli bayram tədbiri

Şəhidlər xiyabanı kompleksi ziyarət olunduqdan sonra Qəbələ Rayon Heydər Əliyev parkında Zəfər Günü münasibəti ilə “Tarixi Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir” adlı bayram tədbiri keçirilmişdir. Tədbir iştirakçıları öncə rayon məktəblilərinin əl işlərindən ibarət sərgi ilə tanış olmuşlar. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivlərinin, ictimaiyyət nümayəndələrinin, Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, müharibə iştirakçıları və qazilərin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Ordu quruculuğu strategiyasının bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən çox böyük uğurla davam etməsindən, onun rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun tarixi qələbəsindən bəhs etmiş, tədbir iştirakçılarını və Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik etmişdir. Tədbir incəsənət xadimlərinin və musiqi kollektivlərinin konsert proqramı ilə davam etmişdir.





# Noyabr - Zəfər və şəhadət yolçuları

Qızılı payız həmişə göz oxşayıb. Təbiətin öz libasını sarı-qızılı rəngə qərq etməsi füsunkar bir gözəllikdir. Sarı-qızılı rəng insanlara bol ruzi-bərəkət bəxş edən bir fəsil kimi payızın simvoludur. Bu rəng həm də günəşin rəngini əks etdirən sarı işıq rəngidir. Bu rəng Zəfər rəngidir həm də... Axı 30 illik işğalçılıq əsarətindən məhz payız fəslində igid ordumuz tərəfindən azad olduq. Zəfər isə gözəl noyabra təsadüf etdi...

Müharibə sözünü deyərkən bu sözün əhatəsində nələrin baş verdiyini, bu sözün nələri ifadə etdiyini çox gözəl bilirik. Bilirik ki, qələbə, zəfər məhz igidlərin - vətənpərvər el oğullarının canı-qanı sayəsində qazanılır. Şəhidsiz Zəfər qazanılmır.

Şəhidlər isə xalqın qan yaddaşının əsrarəngiz görüntüsü, tarixi salnaməsidir.

44 günlük müharibədə döyüşən igidlər və şəhadət yolçuları arasında qəbələlilər də çoxdur. Müharibənin başladığı ilk günlərdən son günədək rayonumuza şəhadət yolçuları bayraq libasında çox gəlib. Hətta Zəfər günündən sonra da - dekabr ayında nəşi gətirilən şəhidlərimiz vardır. Noyabr ayında torpaqların azadlığı, xalqın firavanlığı uğrunda canını qurban verən igid eloğlularımızla oxucularımızı tanış etmək istərdim.

Onlar - Bəhruz Abuşov (Nohurqışlaq kəndi), Fariz Rəhimov (Əmirvan kəndi), Aqşin Ənvərli (Qəbələ şəhəri), Şöhrət Mikayılov (Zərgərli kəndi), Adəm Heydərov (Bum qəsəbəsi), Ruslan İdrisov (Nic qəsəbəsi), Vüqar Səmədov (Yengicə kəndi), Ağaşirin Babayev (Qəbələ şəhəri), Qoşqar Üzeyirov (Soltannuxa kəndi), Natiq İsmayılov (Bunud kəndi), Rəşid Nəsrullayev (Nic qəsəbəsi), Azər Musazadə (Şəfili kəndi), Mikayıl Əhmədov (Savalan kəndi)dur. Bu igidlər Zəfər gününü görmədən şəhid olmuşlar. Xronoloji baxımdan bu şəhadət yolçularının bəziləri itkin düşmüş, şəhid olduğu tarixdə (neytral zonada olduqları üçün) deyil, nəşi tapıldıqdan sonra öz doğma obasına gətirilərək dəfn olunmuşlar.

Onların hər biri vətənpərvər, milli-mənəvi dəyərlərə yüksək qiymət verən, ölümdən qorxmayan fədailərdir. Bu şəhadət yolçuları tarixi yenidən yazanlardır.

Onların hər biri yaddaşlarda əbədi yaşayacaqdır.

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**

# Cənnətməkanda ilk doğum günü...



Antiterror hadisələrinin şəhadət yolçusu Məhəmməd Qarayevin 16 noyabr cənnətməkanda ilk doğum günü olmuşdur. Onun məzarı rayon ictimaiyyəti və şəhid ailələri tərəfindən ziyarət edilmiş, ruhuna dualar oxunmuşdur.

Məkanın cənnət olsun, şəhidim!

# Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi

Qəbələ Rayon İcra Hakimiyyətinin və rayon Heydər Əliyev mərkəzinin təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində “Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi” mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirdə torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin Hüquq şöbəsinin məsləhətçisi Pərvin Pənahov Azərbaycanda Hüquqi dövlət quruculuğunun Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd etmiş, Ümummilli Lider tərəfindən əsası qoyulan dövlətçilik ənənələrinin bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulamışdır. Çıxış edənlər Heydər Əliyevin müstəqil dövlət quruculuğu istiqamətində gördüyü işlərdən danışmış, Ümummilli Liderin banisi olduğu konstitusiyanın müasir dünyanın sivil dəyərlərinə, milli və ümumbəşəri prinsiplərə söykənərək Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu istiqamətində möhkəm təməl yaratdığını qeyd etmişlər. Sonda iştirakçıları maraqlandıran suallar hüquqşünaslar tərəfindən cavablandırılmışdır.

# Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi

Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradın keçirilməsi Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin 2003-cü ildən bəri uğurla həyata keçirdiyi strategiyanın növbəti təntənəsi oldu. Bu hərbi parad ölkəmizin gücünü, hərbi qüdrətini bir daha nümayiş etdirdi. Eyni zamanda da bu güc nümayişi Ermənistana və bu ölkənin bütün dünyada olan havadarlarına növbəti ciddi mesaj oldu. Möhtərəm Prezidentimizin öz çıxışında dediyi kimi, Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qururlarsa, onlar bilməlidirlər ki, heç bir qüvvə ölkəmizi təhdid edə bilməz. Azərbaycan dövləti Vətən müharibəsindən sonra da ordu quruculuğu işini yüksək effektivliklə davam etdirir və ölkəmizə qarşı istənilən hərbi təxribat cəhdi qarşı tərəf üçün ağır nəticələrə gətirib çıxara bilər.

Həmçinin qeyd olunmalıdır ki, bu hərbi parad cənab Prezident İlham Əliyevin 2003-cü ildən bu günə qədər torpaqlarımızın işğaldan azad edilməsinə nail olmaq məqsədilə qəbul etdiyi hər bir qərarın, bu istiqamətdə atdığı hər bir addımın son dərəcə düzgün və effektli olduğunu bir daha təsdiq etdi. Cənab İlham Əliyev 2003-cü ilin oktyabr ayında ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra öz xalqına söz vermişdi ki, bir gün müqəddəs üçrəngli Bayrağımızı işğal altında olan torpaqların hər bir guşəsində qaldıracaq. Möhtərəm dövlət başçımız indiyədək hər kəlmə sözünə olduğu kimi, bu vədinə də əməl etdi. Bu gün artıq müqəddəs bayrağımız Şuşada, Xankəndidə, Xocalıda, Ağdərədə və bütün digər ərazilərimizdə qürurla dalğalanır və bütün xalqımıza, bütün dünya azərbaycanlılarına ən böyük xoşbəxtlik və qürur hissi yaşadır.

Azərbaycan ərazilərinin erməni işğalı altında olduğu dövrdə Ölkə Prezidenti cənab İlham Əliyev xalqa etdiyi bütün müraciətlərində daim deyirdi ki, biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. Çünki ilk vaxtlarda hələ sülh danışıqlarına müəyyən ümidlər olsa da, illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi. Münaqişənin nizamlanması ilə məşğul olan vasitəçilər isə, faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar. Buna görə də 2003-2020-ci illər ərzində Azərbaycanda cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə intensiv hazırlıq işləri gedirdi. Dövlət başçımızın həyata keçirdiyi balanslaşdırılmış məqsədyönlü xarici siyasətin nəticəsi olaraq, ilk növbədə beynəlxalq hüquq müstəvisində Azərbaycanın mövqeləri möhkəmləndirildi. Artıq bütün dünya bilməyə başlamışdı ki, haqlı tərəf məhz Azərbaycandır. Həmçinin ölkəmizdə iqtisadi sahədə həyata keçirilən islahatlar imkan verdi ki, Azərbaycan müstəqil iqtisadiyyata sahib olsun. Ordu quruculuğu prioritet vəzifə kimi müəyyən edildi. Maddi-texniki təchizat, müasir silahların alınması, ordumuzun döyüş qabiliyyətinin artırılması və əlbəttə ki, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi dövlət başçımızın bu sahədə strategiyasının əsasını təşkil etdi. Xankəndidə keçirilən paradda etdiyi çıxışında cənab Ali Baş Komandan demişdir: “Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir.”

2020-ci ilin 8 noyabr tarixində qədim Azərbaycan şəhəri olan Şuşa işğaldan azad edildikdən bir gün sonra Ermənistan faktiki özünün kapitulyasiya aktını imzalamalı oldu və yalnız bundan sonra Azərbaycan hərbi əməliyyatları dayandırdı. Halbuki, o zaman bizim Silahlı Qüvvələrimiz Xankəndinə çox yaxın idilər. Hətta bəzələri müharibənin dayandırılmasından narazı idilər. Lakin zaman özü göstərdi ki, dövlət başçımızın qəbul etdiyi bu qərar son dərəcə müdrik və yeganə düzgün qərar idi. Müharibənin 2020-ci ilin 10 noyabrında dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə belə atılmadan Azərbaycana qaytarıldı. Bununla, cənab Ali Baş Komandan faktiki olaraq minlərlə gəncimizin həyatını xilas etmiş oldu. Çünki həmin ərazilər hərbi əməliyyatlarla azad edilsəydi şəhidlərimizin sayı daha çox ola bilərdi. Müharibədən sonrakı üç il ərzində Azərbaycan ordu quruculuğu prosesini daha da sürətləndirdi. Silahlı Qüvvələrimiz Qarabağ bölgəsində vacib olan məntəqələrə yerləşdirildi, uzun illər ərzində işğal altında qalmış Azərbaycan-Ermənistan sərhədi nəzarətə götürüldü. Lakin Ermənistan öz silahlı qüvvələrinin hissələrini Azərbaycan ərazilərindən nəinki çıxarmadı, əksinə, onlara həmin vaxt dövlətimizin nəzarətində olmayan Laçın-Xankəndi yolu ilə əlavə qüvvələr, silah-sursat, minalar göndərməklə məşğul oldu. Hətta son üç il ərzində keçirilmiş uğurlu hərbi əməliyyatlar da Ermənistana dərs olmadı. Bundan sonra Azərbaycan əməli tədbirlər görmək məcburiyyətində qaldı. İlk növbədə bu ilin aprel ayının 23-də ölkəmiz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq özünün ərazi bütövlüyünü tam bərpa etdi. Təbii ki, dövlətimiz ölkə ərazisində qanunsuz silahlı birləşmələrin və hansısa qondarma separatçı rejimin mövcudluğuna daha 30 il göz yuma bilməzdi. Buna görə də sentyabr ayının 19-da Azərbaycan antiterror tədbiri keçirdi. Düşmən bir gündən də az davam edən əməliyyat nəticəsində təslim oldu, Qarabağda separatçılığa birdəfəlik son qoyuldu və Azərbaycan bütün ərazisində tam suverenliyini bərpa etdi.

**Azad MƏMMƏDOV,**
**“Qəbələ”**